*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2003-cü il 8 oktyabr tarixli 38/322 saylı Qərarı ilə təsdiq edilmişdir.*

# Məntəqə seçki komissiyasının protokollarının və əlavə materialların dairə seçki komissiyalarında qəbul edilib Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi vasitəsilə Mərkəzi Seçki Komissiyasına ötürülmək üçün dairə seçki komissiyasının kompüterinə daxil edilməsi qaydaları haqqında

## T Ə L İ M A T

1. Hər bir dairə seçki komissiyasında bir kompüter və bu kompüteri idarə edən, kompüterin toxunulmazlığına və kompüterə daxil edilən məlumatların bütövlüyünə məsuliyyət daşıyan təhkim olunmuş bir operator olacaqdır. Mümkün olduğu halda, kompüter dairə seçki komissiyası iclaslarının keçirildiyi otaqda yerləşdirilməlidir.

2. Protokolları və əlavə materialları gətirən məntəqə seçki komissiyası sədrlərinin qarşılanması üçün hər bir dairə seçki komissiyası öz üzvlərindən və ya işçilərindən bir nəfəri cəlb etməlidir. Bu şəxs (qarşılayan şəxs) qayda-qanuna riayət olunmasına və gələn hər bir məntəqə seçki komissiyası sədrinin öz növbəsinə müvafiq olaraq qəbul edilməsinin təmin olunmasına məsuliyyət daşıyır.

3. Salamlayan şəxs, məntəqə seçki komissiyası sədrini dairə seçki komissiyası otağına, məntəqə seçki komissiyası protokollarını və materiallarını qəbul edən şəxsin (Qəbul edən komissiya üzvü) oturduğu masayadək müşahidə edir.

4. Qəbul edən komissiya üzvü, məntəqə seçki komissiyası tərəfindən təqdim olunan sənədlərin Seçki Məcəlləsinin 106.7-ci maddəsinə müvafiqliyini yoxlayır.

**Qeyd:** *Bu, materialların əsas yoxlanılması deyil. Qəbul edən komissiya üzvü sənədin sonunda əlavə olunan siyahını yoxlayaraq, tələb olunan bütün sənədlərin sadəcə yerində olub-olmadığını müəyyənləşdirir.*

5. Tələb olunan materiallar təqdim olunmadıqda, sənədlərin işlənməsi prosesi dayandırılır. Bu prosesin davam etməsi üçün, məntəqə seçki komissiyası bütün çatışmayan sənədləri təqdim etməlidir.

6. Seçki sənədlərini və protokolları qəbul edən komissiya üzvü, təqdim olunan sənədlərin qaydasında olduğunu müəyyənləşdirdikdən sonra onları dairə seçki komissiyasının sədrinə təqdim edir.

7. Dairə seçki komissiyasının sədri məntəqə seçki komissiyasının sədrinin iştirakı ilə protokoldakı məlumatların düzgünlüyünü yoxlayır, protokolun düzgün doldurulmasını tam dəqiqləşdirir, protokola əlavə edilmiş sənədlərin qaydasında olmasını yoxlayır.

8. Dairə seçki komissiyası protokolun etibarlılığını müəyyənləşdirir. Bu

müəyyənləşdirməni apararkən, dairə seçki komissiyası az mahiyyətlilik qaydasını tətbiq etməlidir ki, protokolda olan xırda səhvlər hər hansı bir məntəqənin seçicilərini onların səslərindən məhrum etməsin. Xırda texniki səhvlər və ya aşkar anlaşılmazlıqlar dairə seçki komissiyasının qərarı ilə düzəldilə və aktda göstərilə bilər.

9. Bundan sonra dairə seçki komissiyasının sədri məntəqə seçki komissiyasının sədrini protokolla birlikdə protokolda olan məlumatların kompüterə daxil edildiyi kompüter otağına göndərir.

10. Xüsusi hazırlanmış proqram təminatı vasitəsilə kompüter operatoru protokoldakı məlumatların uyğun olub-olmadığını yoxlayır. Bu barədə kompüter operatoru hesabat hazırlayır və çap edir. Hər bir hesabatda kompüter operatorunun adı və vəsiqəsinə dair məlumat göstərilməlidir.

11. Kompüter operatoru protokolun elektron variantının üç nüsxəsini çap edir, imzalayır və protokolun daxili uyğunluğuna dair hesabatla birlikdə onları məntəqə seçki komissiyası sədrinə verir. Məntəqə seçki komissiyası sədri çap olunmuş nüsxələrdəki məlumatın protokolun əsli ilə eyni olduğunu yəqin edir və bundan sonra onları imzalayır. Çap olunmuş bütün bu sənədlərdə kompüter operatorunun adı və vəsiqəsinə dair məlumat göstərilməlidir.

12. Məntəqə seçki komissiyası sədri protokolun əslini, üç nüsxədə çap olunmuş və imzalanmış protokolları və kompüterdə hazırlanmış hesabatı qəbul edən komissiya üzvünə aparır. Qəbul edən komissiya üzvü protokolu, siyahını, hesabatı və çap olunmuş nüsxələri dairə seçki komissiyası tərəfindən yoxlanılmaq üçün sədrə təqdim edəcəkdir.

13. Dairə seçki komissiyası sədri və ya məsul şəxs protokolun hər bir sırasında olan yazılışları ucadan oxuyur və çap olunmuş nüsxələrdəki məlumatın protokoldakı məlumatla eyni olduğunu təsdiq edir. O, həmçinin, kompüter hesabatında olan nəticəni (nəticələri) də ucadan səsləndirir. Çap olunmuş və imzalanmış üçüncü protokol dairə seçki komissiyasına təhkim olunmuş beynəlxalq müşahidəçiyə verilir, tələb olunduqda isə digər nüsxələr müşahidəçilərə verilir.

14. Dairə seçki komissiyası protokolun etibarlı olduğunu müəyyənləşdirdikdə, sədr çap olunmuş üç nüsxəni imzalayır və möhürləyir, həmin nüsxələrdən birini isə kompüter hesabatı ilə birlikdə protokola tikir. Digər nüsxə kompüter olan otağa göndərilir və operator əvvəlcədən müəyyənləşdirilmiş cədvəl əsasında Mərkəzi Seçki Komissiyasına təqdim edilmək üçün elektron məlumatı tərtib edir.

15. Dairə seçki komissiyasının etibarlı hesab etdiyi məntəqə seçki komissiyası üzrə məlumat hər saat Mərkəzi Seçki Komissiyasının Məlumat Mərkəzinə göndərilməlidir. Məlumatları alan kimi, Mərkəzi Seçki Komissiyası onları öz internet səhifəsində dərhal göstərməlidir (ayrıca, yaxud da qruplarda).

16. Daha sonra dairə seçki komissiyası sədri, məntəqə seçki komissiyası tərəfindən tələb olunan materialların təqdim edildiyini göstərən qəbzi imzalayır və möhürləyir. Bu qəbz məntəqə seçki komissiyası sədrinə verildikdən sonra, o, dairə seçki komissiyasını tərk edə bilər.

17. Dairə seçki komissiyası tərəfindən protokolda və ya əlaqədar

sənədlərdə ciddi səhvlər, yolverilməz düzəlişlər və ya uyğunsuzluqlar aşkar edildikdə, dairə seçki komissiyası səslərin yenidən sayılması barədə qərar qəbul edə bilər. Belə halda, məntəqə seçki komissiyasının bütün üzvləri dairə seçki komissiyasına çağırılır və dairə seçki komissiyasının və müşahidəçilərin iştirakı ilə səslərin yenidən sayılması aparılır. Səslərin təkrar hesablanmasına dair yeni protokol tərtib edilir və həmin protokolda "səslərin təkrar hesablanması" sözləri qeyd edilir.

18. Müşahidəçilər, prosesin bütün aspektlərini müşahidə edə bilərlər. Kompüter başqa otaqda yerləşdiyi halda, müşahidəçilər protokolların, hesabatların və çap olunmuş nüsxələrin kompüter məntəqəsindən dairə seçki komissiyasının iclas otağına aparılıb-gətirilməsini, habelə məlumatların operator tərəfindən daxil edilməsini müşahidə edə bilər.

19. Nəzərə alın ki, bu proses ardıcıl şəkildə hər bir məntəqə seçki komissiyası tərəfindən daxil olan sənədlərə şamil edilir. Yalnız bu yolla ilkin nəticələrin dairə seçki komissiyasından Mərkəzi Seçki Komissiyasına vaxtında göndərilməsini təmin etmək olar.